# COP29 Azərbaycanın inkişaf konsepsiyasının təqdimatı üçün mühüm platformadır




Azərbaycanın belə möhtəşəm tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. İqlim dəyişmələrinin qarşısının alınması ilk növbədə istixana effektini törədən qazların atmosferə buraxılmasının ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə öz növbəsində enerji transformasiyasının əsas istiqaməti olan bərpaolunmayan enerji mənbələrindən bərpaolunan enerjiyə keçmək deməkdir. Azərbaycanın bərpaolunan enerji gündəliyi təkcə günəş və ya külək-elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyaları istismara verilib və bu ilin sonuna kimi bu göstərici 270 meqavata çatacaq. İki-üç ildən sonra isə hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da "yaşıl enerji"yə keçid prosesinə digər mühüm bir töhfə olacaq.

6

# COP29 Azərbaycanın inkişaf konsepsiyasının təqdimatı üçün mühüm platformadır

**"Son illər Azərbaycan yaşıl və daha dayanıqlı enerji landşaftına keçiddə nəzərəçarpacaq irəliləyişlər əldə edib. Ölkə beynəlxalq sərmayə və əməkdaşlıq üçün mərkəzə çevrilməklə yanaşı, "yaşıl enerji" layihələrində də əsas oyunçu kimi mövqeyini möhkəmləndirib".**

Bu fikirləri qəzetimizə Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, qlobal miqyasda ekoloji cəhətdən təmiz enerji istiqamətində Azərbaycanın uzaqgörən addımları onun enerji portfelinin şaxələndirilməsi, karbon emissiyalarının azaldılması və ekoloji cəhətdən təmiz texnologiyaların istifadəsi yönündə düşünülmüş səylərinin göstəricisidir. Artıq dünya ictimaiyyətini müharibə və münaqişələrlə yanaşı, iqlim dəyişikliyi də narahat edir. Bunun qarşısının alınması istiqamətində elm adamları ilə bərabər dövlətlər də əsaslı fəaliyyətə başlayıblar. Bu problem bütün dünyanı əhatə etdiyi üçün BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 190-dan çox dövlət qoşulub. Bu dövlətlər müxtəlif konfrans və seminarlar keçirərək "yaşıl enerji"yə keçidin reallaşmasını və atmosferə karbon qazının atılmasının azaldılmasına çalışırlar.

Bu tədbirlər arasında konvensiya tərəfdarlarının konfransının (COP) xüsusi əhəmiyyətə malik olduğunu deyən K.Bayramov xatırladıb ki, 29-cu konfrans noyabr ayında Bakıda keçiriləcək və bu tədbir ölkəmiz üçün mühüm xarakter daşıyır. "Azərbaycanın belə möhtəşəm tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. İqlim dəyişmələrinin qarşısının alınması ilk növbədə istixana effektini törədən qazların atmosferə buraxılmasının ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə öz növbəsində enerji transformasiyasının əsas istiqaməti olan bərpa olunmayan enerji mənbələrindən bərpaolunan enerjiyə keçmək deməkdir. Azərbaycanın bərpaolunan enerji gündəliyi təkcə günəş və ya külək-elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyaları istismara verilib və bu ilin sonuna kimi bu göstərici 270 meqavata çatacaq. İki-üç ildən sonra isə hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da "yaşıl enerji"yə keçid prosesinə digər mühüm bir töhfə olacaq", - deyə o əlavə edib.



Hədəfimiz enerji dəhlizini, Xəzər-Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir. Azərbaycanın vaxtilə çoxlarına əfsanə kimi görünən layihələrin gerçəkləşdirilməsinə nail olması bugünkü uğurlara yol açdı. Hazırda Azərbaycan "yaşıl enerji" ixracına dair layihələr həyata keçirməklə özünün neft-qaz tarixindəki uğurunu təkrarlayır.

K.Bayramov qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsinə yekdilliklə razılıq verilməsi dövlətlərin Azərbaycanı qlobal təşəbbüslərə liderlik edə biləcək ölkə kimi tanımalarından irəli gəlir. Yəni Azərbaycan artıq qlobal səviyyədə öz sözünü demiş ölkədir. COP29-a evsahibliyi etməsi isə onun bu mövqeyini daha da möhkəmləndirəcək. Azərbaycanın neft-qaz sferasına yatırdığı investisiyalar indi öz töhfəsini verdiyi kimi, bərpaolunan enerji sahəsində yatırdığı sərmayələr də qarşıdan gələn illərdə öz bəhrəsini verəcək, ölkəmizin yeni qlobal mühitə inteqrasiyasını asanlaşdıracaq. Xüsusilə azad edilmiş ərazilər bu baxımdan geniş imkanlar açacaq".

Deputat vurğulayıb ki, ölkəmizin qlobal trendlərə uyğun həyata keçirdiyi siyasət və investisiya yatırdığı sahələr strateji əhəmiyyət daşıyır, Azərbaycanın regional və qlobal səviyyədə öz mövqelərini möhkəmləndirməsinə imkan yaradır: "Qeyd edim ki, ölkəmiz neft-qaz ixracatçısı kimi tanınsa da, hazırda "yaşıl enerji" növlərinin yaradılması və gələcəkdə dünya bazarlarına nəql olunması sahəsində də ardıcıl işlər görür. Bərpaolunan enerji mənbələrinə investisiya cəlb etmək, "təmiz enerji"yə keçid prosesini daha da irəli aparmaq Azərbaycanın enerji siyasətinin prioritetlərindəndir".

K.Bayramov sonda bildirib ki, COP29-u cəlbedici edən məsələlərdən biri də ölkəmizin gələcək inkişaf konsepsiyasının təqdim edilməsi üçün onun vacib platforma olmasıdır. Bu tədbir vasitəsilə siyasi uğurlarımıza daha biri əlavə olunacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.1, 6.